# Belarusun nümayəndə heyəti Qəbələ rayonuna səfər edib

***Qəbələ Rayon İcra Hakimiyyəti ilə Belarus Respublikasının Qrodno şəhəri administrasiyası arasında “Regionlararası əlaqələrin qurulması haqqında" 28 noyabr 2016-cı il tarixdə imzalanmış Sazişə uyğun olaraq, dekabrın 8-də Qrodno şəhərinin meri Meçislav Qoyun rəhbərlik etdiyi nümayəndə heyəti Qəbələ rayonuna səfər edib.***



Qonaqları rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev qarşılayıb.

Nümayəndə heyəti həmin gün rayonun bir sıra tarix-mədəniyyət abidələri, aqrar sektoru, sənaye müəssisələri, turizm və idman kompleksləri ilə tanış olublar.

Belaruslu qonaqlar Qəbələ Mədəniyyət Mərkəzində milli muğam üçlüyünün ifasında xalq musiqimizin nümunələrini dinləyiblər.

Qəbələ rayonu ilə daha yaxından tanış olan qonaqlar “Gilan” Qida Şəhərciyindəki sənaye obyektlərində istehsal prosesinə baxıb, hazır məhsulların qablaşdırılması mərhələsini izləyiblər.



Daha sonra nümayəndə heyəti Regional “ASAN xidmət” mərkəzinə gəlib. Mərkəzin inzibati binası ilə tanış olan qonaqlara Regional “ASAN xidmət” mərkəzinin iş prinsipi, burada göstərilən xidmətlər və maraqlı layihələr haqqında ətraflı məlumat verilib. Onlar “ASAN xidmət” mərkəzində əməkdaşların, eləcə də könüllülərin fəaliyyətini yaxından izləyib, “ASAN ödəniş” terminallarının iş prinsipi ilə maraqlanıblar.

Rayon icra hakimiyyətinin inzibati binası və Heydər Əliyev Konqres Mərkəzi ilə tanış olan Belaruslu qonaqlarla Konqres Mərkəzində keçirilən görüşdə tərəflər əvvəlcə nümayəndə heyətlərini təqdim ediblər.

Görüş zamanı Səbuhi Abdullayev bu ilin sentyabrında Belarus Respublikasının Qrodno şəhərində “Evroregion “Neman-2017” universal sərgi yarmarkasında və şəhərin 889-cu ildönümünə həsr olunmuş tədbirlərdə iştirakı zamanı başçılıq etdiyi nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə Qrodno şəhərinin meri Meçislav Qoya bir daha minnətdarlığını bildirib.

Səbuhi Abdullayev ölkəmizə aid stenddə nümayiş etdirilən “Gilan” şirkətinə və “ASPİ-AQRO” MMC-yə məxsus müxtəlif çeşidli şirələrin, şərabların, kənd təsərrüfatı və yeyinti sənayesi məhsullarının sərgidəki ən gözəl stendlərdən biri kimi Qrodno vilayətinin qubernatoru Vladimir Kravtsov tərəfindən çox yüksək qiymətləndirildiyini unutmadıqlarını diqqətə çatdırıb.

O, Belarus təmsilçilərini rayonun tarixi, bu günü, iqtisadiyyatı, sosial və mədəni həyatı barədə ətraflı məlumatlandıraraq, onlara Qəbələnin təbiəti qədər zəngin olan keçmişinin Azərbaycan tarixinin ən parlaq səhifələrini təşkil etdiyini deyib.



900 il Qafqaz Albaniyasının paytaxtı olmuş qədim Qəbələ şəhərinin bugünədək gəlib çatan qalıqları, möhtəşəm qala divarları və burada aparılan arxeoloji qazıntılar zamanı əldə olunan maddi-mədəniyyət nümunələri barədə qonaqlara geniş məlumat verən RİH-nin başçısı rayonun cəlbedici turizm bölgəsi olması ilə yanaşı, həm də beynəlxalq görüşlərə, forumlara, mədəniyyət, incəsənət festivallarına, rəsm sərgilərinə və idman yarışlarına ev sahibliyi etdiyini diqqətə çatdırıb.

Qrodno şəhərinin meri Meçislav Qoy da öz növbəsində başçılıq etdiyi nümayəndə heyətinin Qəbələyə səfərindən böyük məmnuniyyət duyduğunu bildirib. O, Qrodno və Qəbələ arasında mövcud olan ikitərəfli əlaqələri yüksək qiymətləndirib. Mədəniyyət və turizm sahəsində qarşılıqlı əməkdaşlıq əlaqələrinin davam etdirilməsindən söz açan Meçislav Qoy bunun Qrodno və Qəbələ şəhərləri arasında iqtisadi əməkdaşlığın və turizmin inkişafına təkan verəcəyini qeyd edib.

Görüşdə tərəflər arasında xatirə hədiyyələrinin təqdimatı mərasimi olub.

Belarusun dövlət təmsilçilərindən və işgüzar dairələrinin rəhbərlərindən ibarət nümayəndə heyəti növbəti gün "Savalan" Şərab Zavodu, "Chenot Palace" sağlamlıq kompleksi, Stend Atıcılığı Mərkəzi, "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi, Qəbələ Dövlət Tarix-Bədii Qoruğu və "Çotari" Udi-Alban məbədi ilə yaxından tanış olublar.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Yerli özünüidarəetmənin inkişafı: mövcud vəziyyət və perspektivlər mövzusunda konfrans keçirilib

(Əvvəli 2-ci səhifədə).

Azərbaycan Respublikası Milli Məclisinin Regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə diqqətə çatdırıb ki, hələ də bəzi bələdiyyələr tərəfindən bələdiyyənin mülkiyyət hüququ tanınmadan, yaxud müvafiq rəylər alınmadan torpaq sahəsinin satılması və ya icarəyə verilməsi haqqında, satışı qadağan olunan kənd təsərrüfatı təyinatlı torpaqların satılması haqqında qərarlar qəbul edilir, torpaqların bazar qiymətindən aşağı satılması, bələdiyyə qərarlarında müsabiqənin şərtlərinin müəyyən edilməməsi, bələdiyyə mülkiyyətində olan torpaqların zəbt olunmasının qarşısının alınmaması hallarına yol verilir, mülki dövriyyədə olan torpaqlarla bağlı əhali vaxtında məlumatlandırılmır.

Milli Məclisinin Regional məsələlər komitəsinin sədr müavini, Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov qeyd edib ki, təməli ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş ölkə bələdiyyələri illər ötdükcə möhkəmlənib və fəaliyyət dairələrini genişləndirib. Dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində ölkəmizdə yerli özünüidarəetmə orqanlarının gücləndirilməsi istiqamətində mühüm tədbirlər görülüb, onların beynəlxalq standartlara cavab verən hüquqi bazasının möhkəmlənməsi, dövlət və hökumət orqanları ilə əməkdaşlığının tənzimlənməsi ilə əlaqədar yeni qanunların qəbul olunması prosesində milli assosiasiyaların təklifləri nəzərə alınıb.

O, bildirib ki, bələdiyyələrin əsas gəlir mənbəyi hesab olunan yerli vergi və ödənişlərin yığılmasında müəyyən irəliləyiş var. Lakin bələdiyyələr qarşısında duran vəzifələr və görüləsi işlər hələ çoxdur.

Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəisi Zahir Əlizadə qeyd edib ki, bu ilin 9 ayında bələdiyyələrə metodoloji yardım, onların maarifləndirilməsi məqsədilə 140-a yaxın seminar, diskussiya, görüşlər keçirilib, bu tədbirlərdə 6 mindən çox bələdiyyə üzvü və qulluqçusu iştirak edib. Təhlillər göstərir ki, bələdiyyələrlə iş mərkəzinə daxil olan şikayətlərin, eləcə də qanunsuz hesab olunan qərarların əksəriyyəti torpaq qanunvericiliyinin pozulması ilə bağlıdır. İnzibati nəzarəti həyata keçirən orqanların təkliflərinə əsasən qanunsuz olduğuna görə ləğv edilmiş aktların sayı təxminən 2 dəfə artaraq 1040 ədəd olub.

Məhz bu kimi hallara yol verildiyinə görə inzibati nəzarəti həyata keçirən ədliyyə orqanlarının təkliflərinə əsasən bu ilin 9 ayında 2162,5 hektar torpaq sahəsi ilə bağlı qanunsuz qərarlar ləğv olunub. İnzibati nəzarətlə bağlı həyata keçirilən tədbirlər nəticəsində bu ilin ötən dövründə 23 bələdiyyənin fəaliyyətində cinayət əlamətləri aşkar olunduğuna görə toplanmış materiallar istintaq orqanlarına göndərilib.

Konfrans digər çıxışlarla davam etdirilib, müzakirələr aparılıb.

Çıxışlarda bildirilib ki, bu gün Azərbaycan bələdiyyələri beynəlxalq əməkdaşlıqdan bəhrələnirlər. Azərbaycan Yerli Özünüidarə haqqında Avropa Xartiyasının müddəalarını tam tətbiq edir, bələdiyyələrimiz “Avropada Yerli Demokratiya Həftəsi” və “Açıq Qapı Günü” adlı beynəlxalq təşəbbüslərə qoşulur, Türkiyə, Latviya, Litva bələdiyyələri, eləcə də Yerli və Regional Hakimiyyətlər Konqresi, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti ilə əməkdaşlıq edirlər.

Müzakirələrdə bələdiyyələrin fəaliyyətində şəffaflığın daha da artırılmasının zəruriliyi qeyd edilib, yerli vergi və ödənişlərin yığılmasında mövcud çətinliklərin aradan qaldırılması yollarına dair təkliflər səsləndirilib.

Konfrans iştirakçıları həmin gün Qəbələ şəhərindəki “Gilan” Qida Şəhərciyinin, “Savalan” Şərab Zavodunun və Vəndam qəsəbəsindəki heyvandarlıq kompleksinin fəaliyyəti ilə tanış olublar.

**Varis YAQUBOV,**
**İlkin Əlizadə (foto)**
**“Qəbələ”**

# Ulu öndər ehtiramla anıldı

***Rayonun idarə və müəssisələrində, təhsil, səhiyyə və mədəni-maarif ocaqlarında, yaşayış məntəqələrində ulu öndər Heydər Əliyevin anım günü böyük ehtiramla qeyd olunub. Anım günü tədbirində dahi rəhbərin vətən, xalq qarşısında xidmətləri bir daha xatırlanır. Bu tədbirlərdə gənc nəslin nümayəndələrinə ulu öndərin Azərbaycanı müstəqil dövlət kimi yaşatmaq və möhkəmləndirmək yolunda göstərdiyi misilsiz fəaliyyəti barədə geniş məlumat verilir.***

Qəbələ şəhər 3 nömrəli tam orta məktəbində ümummilli lider Heydər Əliyevin anım günü keçirilib.

Tədbiri məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi Ramin Nəbiyev açmış dahi rəhbərin şərəfli ömür yolu barədə məlumat verib.

Tarix müəllimi Məleykə Rəsulova Heydər Əliyevin Azərbaycana rəhbərlik illərində sosial iqtisadi, dövlət quruculuğu sahəsində əldə olunan nailiyyətlərdən danışıb. Ulu öndərin quruculuq yolunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini faktlarla tədbir iştirakçılarına çatdırıb.

Məktəblilər ulu öndərə, Vətənə, vətənpərvərliyə aid şeirlər söyləyiblər.

Tədbirin sonunda Heydər Əliyevin həyat və fəaliyyətinə dair bədii film nümayiş etdirilib.

**Vəfa ALXASOVA,**
**məktəbin müəllimi.**

* * *

Ulu öndər Heydər Əliyevin anım günü Qəbələ Peşə Təhsil Mərkəzində ehtiramla qeyd olunub. Müəllim, mühəndis və şagird kollektivinin iştirak etdiyi tədbiri Qəbələ Peşə Məktəbinin direktoru Azad Məmmədov açıb. Direktor bildirib ki, ulu öndər Heydər Əliyev bütün həyatını doğma vətəni Azərbaycana, Azərbaycan xalqına həsr etmişdir. Ulu öndərin Azərbacana rəhbərliyinin birinci dönəmi Vətənimizin hələ müstəqil olmadığı dövrə təsadüf edirdi. Buna baxmayaraq uzaqgörən dahi rəhbər Azərbaycanı gələcək müstəqil həyat üçün hazırlayırdı.

Azərbaycan müstəqillik əldə etdikdən sonra ancaq ulu öndərin sayəsində müsğtəqilliyini saxlaya və möhkəmləndirə bildi.

Çıxış edənlər ulu öndərin fəaliyyətinin müxtəlif istiqamətləri barədə düşüncələrini tədbir iştirakçılarına çatdırıblar.

**«Qəbələ»**